UOT 332.13.2/1

# Azərbaycanın iqtisadi inkişaf modelinin təkmilləşdirilməsi imkanlarına dair

**Z.A. Quliyev**[1], **G.N. Səfərova**[2]
[1]"Neftqazelmitədqiqatlayihə" İnstitutu,
[2]Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

**e-mail:** ziyaguliyev7@gmail.com

**Açar sözlər:** iqtisadi inkişaf, inkişaf modelləri, prinsipial mexanizm, renovasiya, iqtisadi artım.

DOI.10.37474/0365-8554/2023-12-45-49

**О возможностях усовершенствования модели экономического развития Азербайджана**

З.А. Гулиев[1], Г.Н. Сафарова[2]
[1]НИПИнефтегаз,
[2]Азербайджанский государственный университет нефти и промышленности

**Ключевые слова:** экономическое развитие, модели развития, принципиальный механизм, реновация, экономический прирост.

Описаны возможности усовершенствования действующей модели экономического развития страны. С применением авторского мониторинга были подробно проанализированы различные аспекты моделей экономического развития высокоразвитых и развивающихся стран мира и по каждой из них дан краткий обзор. Также указан ряд факторов, которые могли бы позволить улучшить существующую модель развития национальной экономики Азербайджана.

**About possibilities for improving the model of economic development of Azerbaijan**

Z.A. Kuliyev[1], G.N. Safarova[2]
[1]"Oil–Gas Scietific Research Project" Institute,
[2]Azerbaijan State Oil and Industry University

**Keywords:** economic development, development models, prinsipial mechanism, renovation, economic growth.

The article describes the possibilities for improving the current model of economic development of the country. Using the author's monitoring, various aspects of the economic development models of highly developed and developing countries of the world were analyzed in detail and a brief explanation was given about each of them.

A number of factors are also indicated that could improve the existing model of development of the national economy of Azerbaijan.

Məlumdur ki, bazar münasibətlərinin təşəkkülü şəraitində hər bir ölkənin makroiqtisadi siyasətinin başlıca məqsədi – dayanıqlı iqtisadi inkişafa nail olmaqdır. Artıq bir faktdır ki, mövcud ədəbiyyatlarda bu vaxtadək iqtisadi inkişafı tam mənada əks etdirən yeganə bir göstərici yoxdur. Məhz bu səbəbdən beynəlxalq miqyasda iqtisadi inkişafı xarakterizə edən göstəricilər sisteminin müəyyən edilməsi istiqamətində aparılan tədqiqatlar indi də davam etdirilməkdədir və öz aktuallığı ilə seçilir.

"İqtisadi inkişaf" nəzəriyyəsi "iqtisadi artım" və "iqtisadi tsikllər" nəzəriyyələri ilə bərabər, iqtisadiyyatın dinamik hərəkətini özündə əks etdirən universal bir nəzəriyyədir [1]. Çünki iqtisadi artım iqtisadi dinamikanı kəmiyyət, iqtisadi inkişaf isə keyfiyyət baxımından səciyyələndirir.

İqtisadi inkişaf – mahiyyətcə iqtisadi artımı, daha çox sərvət yaradan bilik iqtisadiyyatının yaradılmasını, iqtisadiyyatda pozitiv struktur dəyişikliyini, əmək məhsuldarlığı və həyat keyfiyyətinin artımını özündə əks etdirən çoxcəhətli bir prosesdir [2].

Lakin iqtisadi artımın olması heç də iqtisadi inkişafın mövcudluğu demək deyil. İqtisadi artım baş verdikdə belə, əgər ölkə iqtisadiyyatında hər hansı bir keyfiyyət və yaxud əsaslı struktur dəyişiklikləri, eləcə də əhalinin həyat tərzində nəzərəçarpacaq pozitiv dəyişikliklər baş vermirsə, onda iqtisadi inkişafdan ümumiyyətlə söhbət gedə bilməz.

"İqtisadi inkişaf" məfhumunun daha düzgün mahiyyəti bir çox ensiklopediyalarda öz əksini tapmışdır. Görkəmli iqtisadçı, akademik Z.Ə.Səmədzadənin ideya müəllifi olduğu və baş redaktorluğu

ilə 2012-ci ildə nəşr edilən Böyük İqtisadi Ensiklopediyada qeyd edilır ki, "...*iqtisadi inkişaf-iqtisadiyyatda real gəlirlərin artması hər bir nəfərə hesablanmaqla, real istehsalın artımıdır*" [3].

Azərbaycanda yeni neft strategiyasının işlənilməsi və onun uğurla həyata keçirilməsi nəticəsində neft-qaz satışından əldə edilən gəlirlər ölkənin sürətli iqtisadi inkişafına təminat yaratmaqla yanaşı, iqtisadiyyatın qeyri-neft sektorunun, nəqliyyat və sosial sferaların inkişafına, İnformasiya Kommunikasiya Texnologiyalarının (İKT) geniş tətbiqinə, əhalinin şəxsi gəlirlərinin artmasına, onların su, qaz və elektrik enerjisi ilə fasiləsiz təminatına, mənzil şəraitinin yaxşılaşdırılmasına imkan vermiş, ölkənin beynəlxalq nüfuzunun dünyada əsaslı şəkildə artmasına, ən başlıcası isə siyasi sabitliyin və davamlı iqtisadi inkişafın formalaşması proseslərinə öz töhvəsini vermişdir.

İqtisadi inkişaf modelinin əsas elementlərinin təhlili. Hər bir ayrıca götürülmüş ölkənin tətbiq etdiyi iqtisadi inkişaf modeli daxili imkanlarına və mövcud şəraitə uyğunlaşdırıldığından, bir sıra parametrlərinə görə digərlərindən fərqlənir. Son 20 ildə iqtisadi inkişafın səviyyəsi və təbii resurslardan qaynaqlanmış iqtisadi ədəbiyyatda "Milli iqtisadi inkişaf modeli" yanaşmasına xüsusi yer ayrılmışdır [4]. Zaman və məkan çərçivəsində formalaşmış, tədricən dəyişmiş və daima inkişaf etməkdə olan bu modelin mahiyyətinə iqtisadi inkişafla əlaqədar qarşıya qoyulan məqsədlər, iqtisadi inkişafın ayrı-ayrı istiqamətləri və onların icrasını təmin edən prinsiplər, metodlar və mexanizmlər daxildir.

İqtisadi inkişafın Azərbaycan modeli öz mahiyyəti ilə digərlərindən çox fərqlənir. Azərbaycanın iqtisadi inkişaf modelinin fərqli cəhətləri – onun innovasiya prosesinə doğru hədəflənməsi, məqsədli və regional proqramlara daha çox üstünlük verilməsi, eləcə də sosial yönümlü olmasıdır.

Dünya təcrübəsində ölkələrin sosial-iqtisadi inkişafının modelləri onların mövcud olan resursları və iqtisadi nəzəriyyələrin ayrı-ayrı ölkələrdə tətbiqi əsasında müəyyən edilir. Beynəlxalq təcrübədə artıq qəbul edilmiş bir sıra iqtisadi inkişaf modelləri də mövcuddur. İqtisadi inkişaf modelləri, ilk növbədə, fərqli təsərrüfat mexanizmləri ilə idarə olunur, çünki hər biri ayrılıqda müxtəlif məzmuna malikdir və zaman ərzində təkmilləşdirilmişdir [5].

Qeyd edək ki, inkişaf etmiş ölkələrdə Ümumi Daxili Məhsulun (ÜDM) 40–60 %-i sosial sahəyə istiqamətləndirilir. İqtisadi inkişaf modelinin əsas tərkib hissəsi kimi isə idxalı əvəz edən və ixrac yönümlü sənaye siyasəti qəbul edilir. Azərbaycanın iqtisadi inkişaf modelinin mahiyyətini, xarakterik xüsusiyyətini və üstün cəhətlərini şərh etməzdən əvvəl, dünyanın inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrinin iqtisadi inkişaf modelinin fərqli cəhətlərini nəzərdən keçirmək yerinə düşərdi. Həmin inkişaf modellərinin, müəllif monitorinqinin nəticəsi kimi yaranmış sxematik qısa şərhi cədvəldə verilmişdir. Cədvəldən göründüyü kimi, qeyd edilən modellərin hər birində müəyyən oxşarlıq olsa da, onların formalaşdırılması prosesində təsərrüfat mexanizminin müxtəlif ünsürləri və kombinasiyalarından geniş istifadə olunmuşdur ki, bu da vacib amil hesab olunur.

| № | Ölkələr | Modelin mahiyyəti və xüsusiyyətləri |
|---|---|---|
| 1 | 2 | 3 |
| 1 | Amerika modeli | Liberal modeldir, sosial siyasətdə fərdiçilik prinsipinə üstünlük verilir. Model əsasən üç dayaq üzərində qurulmuşdur: şəxsiyyət azadlığı, xüsusi mülkiyyət azadlığı və özəl sahibkarlıq azadlığı. Bu modelin əsas prinsipi kimi azad bazar və onun mexanizmlərinin ədalətli rəqabət qanunları əsasında fəaliyyət göstərməsi qeyd edilir. Burada sosial siyasət vətəndaşlara fərdi problemlərin həllində yüksək iqtisadi sərbəstlik verilməsinə hədəflənmişdir. İqtisadi siyasətin formalaşmasında alim və mütəxəssislər yuxarı idarəetmə pilləsində yaxından iştirak edirlər. Bu model sahibkarlığın stimullaşdırılması və əhalinin ən fəal təbəqəsinin varlanması prinsipi üzərində qurulmuşdur. Ölkədə ÜDM-in 80 %-ə qədəri xidmət sahələrində yaranır. Orada federal xərclərin 30 %-i elmi-texniki araşdırmalara sərf edilir. İşsizliyə görə orta aylıq müavinət 1100 dollardan yuxarıdır. İqtisadiyyatın spesifik xüsusiyyəti ondan ibarətdir ki, daxili tələbat təklifləri, dövlət xərcləri onun gəlirlərini, idxal isə ixracı üstələyir. |
| 2 | Almaniya modeli | "Sosial yönümlü bazar təsərrüfatı" modelinin əsas cəhətləri aşağıdakılardır:<br>- dövlət tənzimlənməsi iqtisadiyyatın sahə strukturunun təkmilləşdirilməsi əsasında ictimai əmək bölgüsünün dərinləşdirilməsi yolu ilə azad rəqabətin qorunmasına istiqamətlənməsi;<br>-makroiqtisadi proseslərin və bazar subyektlərinin fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi;<br>-sosial sahələrin sosial tərəfdaşlıq və sosial məsuliyyət əsasları üzərində qurulması;<br>-sosial siyasətin həyata keçirilməsində istehsal sahələrinə üstünlük verilməsi;<br>-iqtisadiyyatın pul-kredit siyasəti vasitəsi ilə tənzimlənməsi;<br>-işsizliyin səviyyəsinin minimuma endirilməsi əsasında məşğulluğun tənzimlənməsi;<br>-sənayenin kreditləşdirilməsi üçün ixtisaslaşdırılmış bankların mövcud olması;<br>-ÜDM-in 30 %-ə qədərinin sosial ehtiyacların ödənilməsinə yönəldilməsi;<br>- ixrac edilən məhsulların 85 %-dən çoxunun hazır emal məhsulunun olması. |
| 3 | Yaponiya modeli | Yapon modelinin xüsusiyyətləri aşağıdakılardan ibarətdir:<br>- sosial funksiyaların dövlətdən firma və təşkilatlara ötürülməsi və onun əsasında dövlət büdcəsində sosial xərclərin aşağı səviyyədə olması;<br>- işçilərin işə ömürlük götürülməsi sisteminin formalaşması və inkişaf etdirilməsi;<br>- sənayedə struktur dəyişiklikləri siyasətinin həyata keçirilməsi əsasında ən çox əlavə dəyər yaradan elm tutumlu sahələrin prioritetliliyi;<br>- ümumi milli mənafelərin fərdlərin mənafelərindən üstünlüyü, dünya bazarında yüksək rəqabət qabiliyyətli məhsul istehsalının təmin edilməsi;<br>- əmək məhsuldarlığının artımının əməkhaqqının artımından yüksək olması prinsipinə üstünlük verilməsi;<br>- iqtisadi inkişafın tənzimlənməsində dövlətin fəal rol oynaması. |
| 4 | Cənubi Koreya modeli | Yapon modelinə çox oxşardır. İqtisadiyyatın sürətli inkişafı üçün dövlət, vergi, tarif və valyuta siyasətindən geniş istifadə edilir. Qiymətlər üzərində dövlət nəzarəti yüksəkdir. Xarici iqtisadi əlaqələr – ixrac yönümlü inkişaf strategiyasına söykənir. |
| 5 | İsveç modeli | Qarışıq iqtisadi sistem mülkiyyətin üç formasının: dövlət, özəl və kooperativ birliyinə və qarşılıqlı hərəkətinə əsaslanır. Modelin əsasında fəal dövlət tənzimlənməsi ilə müşahidə olunan və rəqabətə əsaslanan bazar iqtisadiyyatı dayanır. Modelin xüsusiyyəti əhalinin tam məşğulluğu və yüksək rifah səviyyəsi ilə xarakterizə edilir. Modelin əsas məqsədlərinə aşağıdakılar aiddir:<br>- zəhmətkeşlərin yüksək əməkhaqqı alması;<br>- işsizliyin aşağı səviyyədə olması;<br>- sürətli iqtisadi artım;<br>- əhalinin gəlirlərinin bərabərləşdirilməsi;<br>- istehlakın yüksək səviyyədə olması;<br>- qiymətlərin sabitliyinə nail olmaq;<br>- regional iqtisadi tarazlığa kömək etmək;<br>- əhaliyə sosial zəmanətlərin verilməsi;<br>- vergi dərəcəsinin yüksək olması;<br>- pulsuz xidmətlər vasitəsi ilə sosial tələbatların yüksək səviyyədə ödənilməsi;<br>- sosial həmrəyliyin təmin edilməsi. |
| 6 | Fransa modeli | Bu ölkədə iqtisadi inkişaf aşağıdakı mexanizmlər vasitəsilə təmin edilir:<br>- rəqabətin həvəsləndirilməsi;<br>- qiymətlərin inflyasiya, rəqabət, tələb və təklif balansı amilləri əsasında formalaşdırılması və idarə olunması;<br>- vergi sistemində güzəştlər və imtiyazlar mexanizmlərindən istifadə edilməsi;<br>-əməkhaqqı ödənişinin inflyasiya həddi nəzərə alınmaqla tənzim-lənməsi.<br>Ölkədə daxili istehlak ÜDM-in 70 %-ni təşkil edir. Yoxsulluq həddi 950 avro səviyyəsində qəbul edilmişdir. |
| 7 | İsveçrə modeli | İqtisadi siyasət iqtisadi potensialın modernləşdirilməsi və Xarici İqtisadi fəaliyyətin genişləndirilməsinə hədəflənmişdir. Transmilli korporasiyalar və dövlət sektoru iqtisadiyyatda mühüm rol oynayır. Federal büdcə sosial yönümlüdür. İxracın 90 %-ni hazır sənaye məhsulları təşkil edir. Ümumi milli gəlirin 70 %-i xidmət sahələrində formalaşır. |
| 8 | Türkiyə modeli | İnkişaf strategiyasının əsasını özəl sektorun, kənd təsərrüfatının kiçik və orta biznesin inkişafı, xarici ticarətin liberallaşdırılması, emal sənayesində iri holdinqlərin yaradılması, dövlət-özəl partnyorluğu təşkil edir. Türkiyə əhalisinin 90 %-i icbari tibbi sığorta ilə əhatə olunmuşdur. Tibb xidmətinin 65 %-ni dövlət tibb müəssisələri göstərir. |
| 9 | Litva modeli | Ölkədə sərt, maliyyə və valyuta-siyasəti həyata keçirilir. Burada yüngül, kimya, neft emalı, ağac emalı və tikinti materialları istehsalı sahələri sürətlə inkişaf etdirilir. Avropa standartlarına uyğunlaşdırılan yüngül sənaye, eləcə də turizm sferası prioritet sahələrdən hesab edilir. |
| 10 | Qazaxıstan modeli | İqtisadi inkişaf modelinin mahiyyəti-rəqabət qabiliyyətli ölkənin yaradılması və renta ödənişi əsasında xarici investisiyaların cəlb edilməsindən ibarətdir. Ölkədə struktur islahatları Sinqapur variantı əsasında həyata keçirilir. İqtisadi islahatlar çərçivəsində güclü maliyyə-sənaye qruplarının yaradılmasına və icra hakimiyyətinin formalaşdırılmasına üstünlük verilir. İqtisadiyyatın neft sektorundan asılılığının azaldılması və 2030-cu ilə qədər qeyri-neft sektorunun inkişafına üstünlük verilmişdir. |
| 11 | Rusiya modeli | Ölkənin müasir bazar modeli qarışıq iqtisadiyyata əsaslanır. Ölkədə mülkiyyətin bütün formaları tətbiq edilir, üstünlük əsasən səhmdar cəmiyyətinə verilmişdir. Ölkənin yeni iqtisadi strategiyası "Yığım-investisiya ağırlığının artımı" prinsipinə əsaslanır. Ona uyğun olaraq 2035-ci ilədək aşağıdakılar üstünlük verilməsi nəzərdə tutulmuşdur:<br>- investisiya yönümünün artımı;<br>- biznes mühitinin yaxşılaşdırılması;<br>- qeyri-neft ixracının dəstəklənməsi;<br>- xərclərin azaldılması;<br>- şirkətlərin gəlirlərinin artırılması;<br>- iqtisadi sferalarla rəqabətin stimullaşdırılması və dəstəklənməsi;<br>- innovasiya fəaliyyətinin dəstəklənməsi;<br>- cəmiyyətin və hər bir vətəndaşın maraqlarının qorunması. |



İQTİSADİYYAT, İDARƏETMƏ, HÜQUQ
ЭКОНОМИКА, УПРАВЛЕНИЕ, ПРАВО / ECONOMY, MANAGEMENT AND LAW

